Fyodor Dostoyevski

# ƏBƏDİ ƏR

Tərcüməçi:
Qılman İlkin

qanun nəşriyyatı

**Фёдор Достоевский**

# ВЕЧНЫЙ МУЖ

Pavel Pavloviç mərhum arvadının keçmiş sevgilisi olan Velçaninovla gözlənilməz şəkildə əlaqə qurur. Pavel Pavloviç mənəviyyatca zəif, arvad sözüylə oturub-duran, işi-peşəsi yalnız kiminsə "əbədi ər"i olmaqdan ibarətdir. Velçaninov isə intellektual, özünəinamlıdır. Onların münasibəti tədricən psixoloji duelə çevrilir: günah, intiqam, bağışlama və gizli mübarizə üzə çıxır.

Əsərin əsas tragik qəhrəmanı isə balaca Lizadır. Əslində, atası bildiyi Pavloviç qıza hər baxışında arvadının onu başqa kişiylə necə aldatdığını xatırlayır.

Dostoyevski bu əsərində xəyanətin açıq formasından çox, onun insan şüurunda yaratdığı dağıdıcı təsiri, özünü aldatma və mənəvi sarsıntı mexanizmlərini araşdırır. "Əbədi ər" oxucunu sadə süjetdən daha çox, insan ruhunun qaranlıq qatlarına aparan psixoloji-fəlsəfi təcrübəyə dəvət edir.

# MÜNDƏRİCAT


| | |
|---|---|
| I. Velçaninov | 7 |
| II. Şlyapası krepli cənab | 15 |
| III. Pavel Pavloviç Trusotski | 26 |
| IV. Arvad, ər və oynaş | 37 |
| V. Liza | 45 |
| VI. Avara adamın yeni fantaziyası | 57 |
| VII. Ər və oynaş öpüşürlər | 65 |
| VIII. Liza xəstədir | 77 |
| IX. Qarabasma | 84 |
| X. Qəbiristanlıqda | 93 |
| XI. Pavel Pavloviç evlənir | 102 |
| XII. Zaxlebininlər | 113 |
| XIII. Kimin tərəfində çoxdur | 135 |
| XIV. Saşenka və Nadenka | 144 |
| XV. Haqq-hesab | 154 |
| XVI. Təhlil | 164 |
| XVII. Əbədi ər | 174 |

# I

# Velçaninov

Yay girdi və Velçaninov heç gözləmədiyi halda Peterburqda qalmalı oldu. Onun Rusiyanın cənubuna səfəri pozulmuşdu, işin isə ucu-bucağı görünmürdü. Bu iş – malikanə çəkişməsi getdikcə pis şəkil alırdı. Üç ay əvvəl, o çox asan və az qala, mübahisəsiz bir məsələ kimi görünürdü; lakin birdən hər şey dəyişdi. "Ümumiyyətlə, işlər getdikcə xarablaşır!" – bu cümləni Velçaninov acı bir istehza ilə öz-özünə tez-tez təkrar edirdi. O, pul əsirgəmirdi, güclü pula zirək, yaxşı məşhur bir vəkil tutmuşdu. Lakin hövsələsizlikdən və nigarançılıqdan işə özü də qarışırdı; vəkilin bir ucdan ləğv elədiyi kağızları oxuyur, yazır, lazımi yerlərə baş çəkir, məlumatlar toplayır və güman ki, hər şeyə mane olurdu, buna görə də vəkil gileylənir və onu yaylağa qovurdu. Lakin o, yaylağa getmək qərarına da gələ bilmirdi. Toz-tozanaq, bürkü və əsəbləri pozan bəyaz Peterburq gecələri – onun indi Peterburqda həzz aldığı şeylər bunlardan ibarət idi. Bu yaxınlarda kirayələdiyi mənzil Böyük Teatrın həndəvərində idi, o da ürəyindən deyildi. "Heç bir işim düz gətirmir!" Pərişanlığı gündən-günə artırdı; əslinə baxsan, o, pərişanlığa çoxdan tutulmuşdu.

O görüb-götürmüş, gen-bolluqla həyat sürmüş və gənclik yaşı ötmüş, otuz səkkiz, bəlkə də, otuz doqquz yaşlarında bir adam idi. Özünün dediyi kimi, bu "qocalıq" onu, "demək olar ki, qəfil" haq-

lamışdı. Ancaq özü başa düşürdü ki, o, kəmiyyət etibarilə deyil, necə deyərlər, illərin keyfiyyəti etibarilə qocalmışdır. Və əgər onda taqətsizlik başlayıbsa, bu xaricən deyil, daxiləndir. Üzdən o, indi cavan görünürdü. Hündürboylu, qıvraq, sarışın, gursaçlı bir kişi idi, bircə tükü də ağarmamışdı, sinəsinə qədər düşən kürən saqqalı var idi. İlk nəzərdə bir az yöndəmsiz, düşkün kimi görünürdü, ancaq diqqətlə baxanda görərdin ki, bu, vaxtilə ən kübar ailədə tərbiyə almış və özünə əla baxmış, yaxşı qalmış bir ağacdır. Sonradan kökəlmiş, kobudlaşmış olsa da, hərəkət və davranışı indi də sərbəst, qıvraq və hətta gözəl idi. Hətta indi də kübar adamlar kimi, çox həyasız, sırtıq, özündən bədgüman idi. Ağıllı hətta bəzən dərrakəli olmasına baxmayaraq, bədgümanlığının həddini özü də bilmirdi. Ağ-çəhrayı sifəti keçmişdə qadın üzü kimi zərif idi və qadınların diqqətini cəlb edirdi; elə indi də bəziləri ona baxanda deyirdilər: "Gör necə sağlamdır, yanaqlarından qan damır!" Lakin bu "sağlam" adam dəhşətli pərişanlığa tutulmuşdu.

İri ala gözləri on il qabaq çox cazibədar idi. Elə işıqlı, elə gülər və qayğısız gözləri var idi ki, qarşısına çıxan hər bir adamı biixtiyar cəzb edirdi. İndi, qırx yaşlarına yaxın, xırda qırışlarla əhatə olunmuş bu gözlər, işığını, gözəlliyini itirmişdi. Bu gözlərdə ədəbsiz və yorğun adama xas bir həyasızlıq, məkr, tez-tez özünü göstərən bir istehza və süstlük də əvvəllər onda olmayan yeni bir əlamət – kədər və ağrı əlaməti, boş, bir növ dalğın, lakin güclü kədər var idi. Tək olanda bu kədər özünü xüsusilə büruzə verirdi. Çox qəribə idi ki; cəmi iki il əvvəl həmişə deyib-gülən, gülərüz, qayğısız və çox məzəli əhvalatlar danışan bu adam indi tək-tənha qalmağı hər şeydən artıq sevirdi. O, tanışlarının çoxundan qəsdən uzaqlaşmışdı, halbuki maliyyə işlərinin tamamilə pozulmasına baxmayaraq, hətta indi də onlardan uzaqlaşmaya bilərdi. Doğrudur, bu, işdə şöhrət-

pərəstliyin də rolu olmuşdu; onun kimi şöhrətpərəst, vasvası adam əvvəlki dost-aşnaları ilə yola gedə bilməzdi. Lakin tənhalıqda şöhrətpərəstliyi də yavaş-yavaş dəyişirdi. Bu şöhrətpərəstlik, nəinki azalmış, əksinə artmışdı, indi başqa sayaq şöhrətpərəstliyə, əvvəllər onda olmayan bir şöhrətpərəstliyə çevrilmişdi; o bəzən əvvəllər baş verən adi səbəblər üzündən deyil, tamamilə başqa, gözlənilməz və əvvəllər heç ağlına gəlməyən səbəblərdən, bu vaxtacan olan səbəblərdən "daha ali" səbəblər üzündən iztirab çəkməyə başlayırdı. "Əgər təbir caizsə, əgər həqiqətdən ali və kiçik səbəblər varsa..." Bu sözləri o özü əlavə edirdi.

Bəli, o bu dərəcəyə çatmışdı; indi o, əvvəllər heç ağlına gəlməyən ali səbəblərlə çarpışırdı. O özlüyündə heç cür rişxənd edə bilmədiyi bütün səbəbləri (özü təəccüb eləsə də), öz xəyalında və vicdanən ali səbəblər adlandırırdı. Belə rişxənd etmə halları indiyədək onda özünü göstərməmişdi, əlbəttə, öz-özlüyündə, cəmiyyətdə isə başqa məsələ! O, yaxşı bilirdi ki, vəziyyət dəyişən kimi, elə ertəsi gün, öz vicdanının əsrarəngiz və alicənab qərarına baxmayaraq, bütün bu "ali səbəblərdən" uzaqlaşar və onlara birinci özü, əlbəttə, heç bir şeyi etiraf etmədən, rişxənd edərdi. Bu vaxtadək onu bürüyən "kiçik səbəblərdən" bir qədər, hətta xeyli fikir müstəqilliyi qoparmasına baxmayaraq, bu, həqiqətən, belə idi. Neçə dəfələrlə o, səhərlər yatağından qalxarkən, yuxusuz gecə ərzində keçirdiyi hisslərdən və ağlına gələn fikirlərdən xəcalət çəkmişdi (O, son vaxtlar yaman yuxusuzluğa tutulmuşdu). Çoxdan hiss etmişdi ki, hər şeydə, mühüm məsələlərdə də, xırda məsələlərdə də getdikcə həddindən artıq vasvası olur, buna görə də özünə mümkün qədər az inanmaq qərarına gəlmək istəyirdi. Lakin bəzən elə işlər olurdu ki, onu mövcud hadisə kimi etiraf etməmək mümkün deyildi. Son zamanlar bəzən onun fikir və duyğuları həmişəkinə nisbətən, demək

olar ki, tamam dəyişirdi və çox vaxt günün birinci yarısında başına gələn fikirlərə qətiyyən oxşamırdı. Bu onu dəhşətə gətirirdi, o hətta tanımadığı məşhur bir həkimlə də bu barədə məsləhətləşmişdi. Əlbəttə, onunla söhbətə zarafatyana başlamışdı. Cavab almışdı ki, gecələr yuxusuzluq zamanı, ümumiyyətlə, gecələr fikir və hisslərin dəyişməsi, haçalanması "çox fikirləşən və çox hiss edən" insanlar arasında ümumi haldır ki, bütün həyat inamı bəzən qəflətən gecənin və yuxusuzluğun malxulyası təsiri altında dəyişir; birdən heç bir səbəb olmadan qəti qərarlar alınır; əlbəttə, müəyyən ölçü daxilində. Əgər insan özündə bu haçalanmanı həddindən artıq hiss edirsə, bu onu iztiraba aparıb çıxarır və şübhə yoxdur ki, bu xəstəliyin başlanması əlamətidir. Deməli, təcili tədbir görülməlidir. Hər şeydən yaxşısı budur ki, həyat tərzini kökündən dəyişəsən, pəhrizini dəyişəsən, ya da hətta səyahətə çıxasan. Qarın işləmə dərmanı da xeyirlidir.

Velçaninov daha həkimin söhbətinin gerisinə qulaq asmadı; lakin xəstəliyi ona sübut olunmuşdu.

O hərdən öz-özünə acı-acı söylənirdi: "Bütün bunlar ancaq xəstəlikdir, bütün bunlar "ali" bir xəstəlikdir, vəssalam!" Ancaq o bu fikirlə razılaşmaq istəmirdi.

Çox keçmədi ki, yalnız gecələr baş verənlər səhərlər də təkrar olunmağa başladı, ancaq gecəyə nisbətən daha ağır, peşmançılıq əvəzinə qəzəblə, riqqət əvəzinə istehza ilə təkrar olunurdu. Mahiyyət etibarilə bütün bunlar "qəflətən və Allah bilir, nə üçünsə" onun keçmiş, çoxdan ötüb-keçmiş həyatından xüsusi bir tərzdə tez-tez yadına düşən macəralar idi. Misal üçün, Velçaninov artıq çoxdan yaddaşının korlanmasından şikayətlənirdi; o tanış adamların sifətlərini unudurdu, küçədə rast gələndə bu adamlar inciyirdilər. Yarım il qabaq oxuduğu bir kitab bu müddətdə tamam yadından çıxmış-